*Raqif Nazimoğlu*

## *Ağla, Xocalım oy, ağla*

Dağ çəkilib dağlarına,
Boran düşüb bağlarına,
Boylan xoşbəxt çağlarına,
Ağla, Xocalım oy, ağla.

Əsirlikdə qalanın var,
Saçlarını yolanın var,
Gözü yolda qalanın var,
Ağla, Xocalım oy, ağla.

Sahibsizdir obaların,
Tüstüləmir sobaların,
Goru yanır babaların,
Ağla, Xocalım oy, ağla.

Yağı düşmən solun, sağın,
Vıran qalıb bağçan, bağın,
İnildəyir torpaqların,
Ağla, Xocalım oy, ağla.

Qəmlə ötür ayın, ilin,
Əllərimə çatmır əlin.
Sovrulubdur göyə külün,
Ağla, Xocalım oy, ağla.

Dumanlanıbdı yolların,
Qandallanıbdı qolların,
Əsir düşüb oğulların,
Ağla, Xocalım oy, ağla.

Sinən üstə şum çəkilib,
Ürəyinə dərd əkilib,
Həsrətdən belin bükülüb,
Ağla, Xocalım oy, ağla.

Zirvələrin çənsiz qalıb,
Zəmilərin dənsiz qalıb.
Məzarların dinsiz qalıb,
Ağla, Xocalım oy, ağla.

Körpələrin nizələnib,
İgidlərin güllələnib,
Yurd yerinə kül ələnib,
Ağla, Xocalım oy, ağla.

Qara geyib dağın, dərən,
Ah naləni varmı görən,
Övladların pərən-pərən,
Ağla, Xocalım oy, ağla.

***Nazimoğlu R. Ağla, Xocalım, oy ağla  : şeir // Nazimoğlu R. Ağla, Xocalım,***